## “Debitor borcları barədə Məlumat Forması”nın tərtib edilməsi QAYDASI

**1.** İnternet Vergi İdarəsinin (https://www.e-taxes.gov.az) “**Giriş**” hissəsində ASAN (və ya elektron) İmzadan istifadə etməklə “**Onlayn kargüzarlıq və e-VHF**” sətiri seçilir və “**Daxil ol**” düyməsi sıxılır.




**2.** Bundan sonra, “**Yeni müraciət**” bölməsində müraciətin növü “**Ərizə**”, sənədin növü “**Debitor borclar barədə Məlumat Forması”** seçilərək qəbul düyməsi sıxılır.




**3.** Açılan pəncərədə şəxsin adı, VÖEN-i və digər rekvizitləri avtomatik olaraq ekrana gəlir. Bu bölməsi “**Rezidentlər üzrə” və “Qeyri-rezidentlər üzrə”** adlı hissələrdən ibarətdir. Pəncərədə mövcud **“nümunə excel faylı”** kompyuterə yüklənilir, doldurularaq bunun üçün nəzərdə tutulmuş hissədən “Seç” düyməsi vasitəsilə yüklənır.




**“Rezidentlər üzrə”** 01.01.2020-ci il tarixə debitor borclar excell formanın müvafiq xanalarında ƏDV-yə müvafiq dərəcə ilə cəlb olunan əməliyyatlari üzrə (18%, 0% və azad

olunan) hər bir vergi ödəyicisi üzrə (ƏDV-siz) ayrıca əks etdirilir. **VÖEN təkrar olması, düzgün olmaması, əvvəl və ya sonra “. , “ ” - / boşluq” kimi simvol və ya hərflərin istifadə olunması qadağandır!**

| № | VÖEN | Vergi ödəyicisinin adı | ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar | ƏDV-dən azad olunan əməliyyatlar | ƏDV-yə 20% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | Əməliyyatlar üzrə CƏMİ (3s+4s+5s+6s) | ƏDV üzrə qalıq məbləği | ƏDV-yə cəlb edilməyən əməliyyatlar |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 1 | 9900000111 | "A" müəssisəsi | 100,0 | 0,0 | 0,0 | 0,0 | 100,0 | 0,0 | 0,0 |
| 2 | 1300000111 | "B" FİRMASI | 190,0 | 0,0 | 0,0 | 0,0 | 190,0 | 60,0 | 0,0 |
| 3 | 1300000111 | "B" FİRMASI | 0,0 | 0,0 | 500,0 | 0,0 | 500,0 | 0,0 | 0,0 |

Malın (işin, xidmətin) dəyəri ödənilmədiyi halda ƏDV məbləği 01.01.2020-ci il tarixədək ödənilmişdirsə, əməliyyat sütununda malın (işin, xidmətin) dəyəri, “**ƏDV məbləği**” sütununda isə **“0”** (sıfır) qeyd olunur.

| № | VÖEN | Vergi ödəyicisinin adı | ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar | ƏDV-dən azad olunan əməliyyatlar | ƏDV-yə 20% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | Əməliyyatlar üzrə CƏMİ (3s+4s+5s+6s) | ƏDV üzrə qalıq məbləği | ƏDV-yə cəlb edilməyən əməliyyatlar |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 1 | 9900000111 | "A" müəssisəsi | 100,0 | 0,0 | 0,0 | 0,0 | 100,0 | 0,0 | 0,0 |
| 2 | 1300000111 | "B" FİRMASI | 190,0 | 0,0 | 0,0 | 0,0 | 190,0 | 60,0 | 0,0 |
| 3 | 1300000111 | "B" FİRMASI | 0,0 | 0,0 | 500,0 | 0,0 | 500,0 | 0,0 | 0,0 |

“**ƏDV-nin vergitutma obyektini təşkil etməyən əməliyyatlar**” sütununda vergitutma obyekti olmayan əməliyyatlar (məs: torpaq satışı və s.), eləcə də ƏDV-nin məqsədləri üçün qeydiyyata alındığı tarixdən əvvəlki dövrə aid debitor borcları əks etdirilir.

| | A | B | C | D | E | F | G | H | I | J |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | № | VÖEN | Vergi ödəyicisinin adı | ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar | ƏDV-dən azad olunan əməliyyatlar | ƏDV-yə 20% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | Əməliyyatlar üzrə CƏMİ (3s+4s+5s+6s) | [illegible] | ƏDV-yə cəlb edilməyən əməliyyatlar |
| 2 | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | | 9 |
| 3 | 1 | 9900050571 | Cybernet LLC | 100,0 | 0,0 | 0,0 | 0,0 | 100,0 | 0 | 0,0 |
| 4 | 2 | 9900049771 | Alko LTD LLC | 250,0 | 50,0 | 0,0 | 0,0 | 300,0 | 4 | 0,0 |
| 5 | 3 | 0200015431 | OMMITECH+ LLC | 0,0 | 0,0 | 300,0 | 150,0 | 450,0 | 3 | 800,0 |
| 6 | | | | | | | | | | |
| 7 | | | | | | | | | | |

**4.** VÖEN-siz rezident şəxslər üzrə debitor borclarının cəmi formanın müvafiq sətrində əməliyyatın növünə uyğun (18%, 0% və azad olunan) xanalarda əks etdirilir Sətrin aktivləşdirilməsi üçün “**o cümlədən vergi ödəyicisi kimi uçotda olmayan (VÖEN-i olmayan) şəxslər üzrə**” sözlərindən əvvəlki boş xanaya toxunulmalıdır.




5. **“Qeyri-rezidentlər üzrə”** excel formada “**Qeyri-rezidentin ölkəsi**” sütununda qeyri -rezidentin ölkəsinin tam və ya qısaldılmış adı, “**Qeyri-rezidentin adı**” sütununda isə ingilis dilində adı qeyd olunur. **“Qeyri-rezidentlər üzrə”** hissəyə əlavə ediləcək nümunəvi excel fayla aid digər sütunlar **“Rezidentlər üzrə”** hissəyə yüklənilən faylın müvafiq sütunlarına uyğun olaraq doldurulur.

| № | Qeyri-rezidentin adı | Qeyri-rezidentin ölkəsi | ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar | ƏDV-dən azad olunan əməliyyatlar | Əməliyyatlar üzrə CƏMİ (3s+4s+5s) | ƏDV məbləği | ƏDV-yə cəlb edilməyən əməliyyatlar |
|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1 | Aramco JSC | Səudiyyə Ərəbistanı | 10 000,0 | 0,0 | 0,0 | 10 000,0 | 1 800,0 | 0,0 |
| 2 | Amazon LLC | ÇİN | 4 000,0 | 0,0 | 2 500,0 | 6 500,0 | 0,0 | 24 000,0 |
| 3 | Tesla Company | ABŞ | 0,0 | 50 000,0 | 32 000,0 | 82 000,0 | 0,0 | 0,0 |

6. 01.01.2020-ci il tarixə debitor borcu olmadıqda “**Bəyan ediləcək məlumatım yoxdur**” sözlərindən əvvəlki boş xanaya toxunulmalıdır.

7. Məlumat forması hazırlandıqdan sonra “**İrəli**” düyməsi sıxılmalıdır.




8. “**İrəli**” düyməsi sıxıldıqda Məlumat formasının çap versiyası əks olunur. Məlumatların doğruluğu bir daha yoxlanılmalı, ASAN (və ya elektron) imza vasitəsilə

imzalanmalıdır.




9. Məlumat forması yalnız ASAN (və ya elektron) imzadan istifadə olunmaqla təqdim edildikdə lazımi qaydada verilmiş sayılır. Kağız formasında tərtib edilmiş, eləcə də digər üsullarla təqdim edilmiş Məlumat formasının məlumatları vergi orqanı tərəfindən **nəzərə alınmaya bilər**.

10. Ləğv tarixi 01.01.2020-dən sonra olan debitor vergi ödəyicilərinin göstəriciləri də, göstərilən qaydada Formaya daxil edilməlidir.

11. Təqdim edilmiş formada düzgün olmayan və yaxud təhrif olunmuş (natamam) məlumatlar əks etdirildikdə, eləcə də mallar (işlər və xidmətlər) üzrə debitor borcların dəyərində dəyişiklik olduqda vergi orqanına **1 yanvar 2021-ci il tarixədək** dürüstləşdirilmiş forma təqdim edilir.